# KEÇMİŞDƏN GƏLƏN SƏSLƏR

**Sona Xəyal**
*AMEA M. Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç. 26*

Tədqiqat obyektimiz olan Əliabbas Müznibin “Azərbaycan şairləri” adlı təzkirəsində daha bir yeni şairin bir tərcibəndini əldə etdik. Burada şair Bakının ruslar tərəfindən işğalını nəzmə çəkmişdir. Əsərdə tarixi hadisələr işıqlandırılır, İsmayılın, Təhmasibin, Hüseyn xanın və b. adı çəkilir. Burada şair “Min yüz otuz beşdəki bu cövrü sitəmlərə...” münasibət bildirir və buradan şeirdəki hadisələrin XVIII əsrin əvvəllərində baş verdiyi aydınlaşır. Əsərin dili bakılı şairlərin dilinə oxşadığına görə, həm də şeir Bakı ilə bağlı olduğuna görə, Şövkət Sübhinin bakılı şair olduğunu düşünürük. Cəfər Rəmzinin “Deyilən söz yadigardır” toplusunda bu müəllifə rast gəlinmir.

Tərcibənd çox az şairin müraciət etdiyi janrdır. Şairlər adətən qəzəl, qitə, mürəbbə, müxəmməs, müsəddəs və s. yazandan sonra tərkibbənd və tərcibənd yazırlar. Bəzi şairlərin yaradıcılığında, demək olar ki, heç tərcibəndə təsadüf edilmir. Şair əgər tərcibənd yazmışdırsa, bu qənaətə gəlmək olar ki, onun çoxlu qəzəlləri və digər janrlarda əsərləri vardır. Əlimizə çatan bu tərcibənd hələ ki, şairin yeganə şeiridir. Şövkət Sübhinin bu əsəri bədii siqləti ilə də diqqəti çəkir. Ona görə də tərcibəndi “Əlyazmalar yanmır” jurnalının oxucularına təqdim etmək qərarına gəldik.





**Şövkət Sübhi**

## TƏRCİBƏND

Ya Rəb, bu qövmi-dun bizə bidad qıldılar,
Zülmi ziyad, zilləti müzdad qıldılar.
Əhbabi xar, düşməni dilşad qıldılar,
Yəğmani, qətli, sirqəti mötad qıldılar.
Xirsi-şimali qarətə irşad qıldılar,
İnsanə divi qatilü cəllad qıldılar.
Hər yani odlə kureyi-həddad qıldılar,
Nə rəhm etdilər, nə həqqi yad qıldılar.
Əfsus Bakuni necə bərbad qıldılar,
Xəlqin təmam karını fəryad qıldılar.

Sındi çəməndə badi-sitəmlə nihalımız,
Qaldı qəfəsdə bülbüli-şirinməqalımız.
Nöqsanə irdi şol qəmə bərkəmalımız,
Şəhbazkən qırıldi bu gün şah balımız.
Talan olundi dövlətü malü mənalımız,
Oldi ziyadə zillətü dərdü məlalımız.
Pamal olundi izzətü cahü cəlalımız,
Oldi əsir düşmənə əhli-əyalımız.
Əfsus Bakuni necə bərbad qıldılar,
Xəlqin təmam karını fəryad qıldılar.



Dəryayi gəştilər dutub ətrafi sərbəsər,
Dəryayi-narə döndi bütün sahili-Xəzər.
Xümpalər yağub tökülüb şəhrə çün mətər,
Yandırdi şəhri, oldi qəmu xanələr hədər.
Oldi əyali-müslim biyari-dərbədər,
Əflakə çıqdi naləvü fəryadü əlhəzər.
Düşdi gəda əyağınə zillətlə taci-zər,
Bir olmadi bu halə qılan lütfilə nəzər.
Əfsus Bakuni necə bərbad qıldılar,
Xəlqin təmam karıni fəryad qıldılar.

Sultan Hüseyn tək var ikən padşahimiz,
Olmaz nədənsə lütf qılub dadxahimız.
Yetsəydi dadə ol şəhi-aləmpənahimiz,
Düşmən əlinə düşməz idi izzü cahimiz.
Ərşi-xudayə çıqmaz idi dudi-ahimiz,
Əbri-siyahə girməz idi mehrü mahimiz.
Fövci-cəfa əlilə kəsilməzdi rahimiz,
Guya edüb bəla bizə nazil İlahimiz.
Əfsus Bakuni necə bərbad qıldılar,
Xəlqin təmam karıni fəryad qıldılar.



Çəkdi müxalif ökəyə hər səmtdən həsar,
Ləşkər töküldi üstümüzə bihədü şümar.
Düşdi nəhaqə mahsifət xəlq hər nə var,
Sultani-Bakü, əbdi-Kərimi-fələkmədar.
Düşmənlə qıldi hər necə mərdanə karzar,
Heyhat, bəxti olmadi ol şəhriyarə yar.
Dami-bəlayi-düşmənə axır olub düçar,
Yəğmayə getdi malü dövlətü din oldi tarmar.
Əfsus Bakuni necə bərbad qıldılar,
Xəlqin təmam karıni fəryad qıldılar.



Küffar guşə almadi nə möizə, nə pənd,
Yığdi, dağıtdi hər yerə düşmən edincə bənd.
Məscidlər içrə bağladılar səg ilə səmənd,
Seyyid, axund gərdəninə saldılar kəmənd.
Darə çəkildi cümləsi doğrandi bənd-bənd,
Oldi səmayi-Xaliqi-Həqqə fəğan bülənd.
Nari-cəfayə xəlq qəmu yandi çün sipənd,
Cahü cəlali-Bakuyə yetdi böyük gəzənd.
Əfsus Bakuni necə bərbad qıldılar,
Xəlqin təmam karıni fəryad qıldılar.

Beş-altı yüz qoşun nə qədər etdi ihtimam,
Dəf'i-əduyə himmətilə qıldısə qiyam.
Çərx etmədi cədəldə bizi naili-məram,
Kim qüvvət ilə eyləmədik qarşudə dəvam.
Rus etdi həmlə üstümüzə xırs tək müdam,
Tupü tüfəngi çoq, qoşuni xeyli banizam.





Nə etdi rəhm tiflə, nə də pirə ehtiram,
Məhşər qopartdi başımızə zülmi-qətli-am.
Əfsus Bakuni necə bərbad qıldılar,
Xəlqin təmam karını fəryad qıldılar.

Əmri-qital verdi Matuşkin çü ləşkərə,
Xunxar fövci baqmadi Allah, peyəmbərə,
Qıldi əhatə qurt təki ətrafi yeksərə,
Qanlar töküldi döndi Bakü bəhri-əhmərə.
Ağayi-Mirqəvam hədəf oldi xəncərə,
Ali-Yezid etdi sitəm sibti-Heydərə.
Min yüz otuz beşdəki bu cövrü sitəmlərə,
Kafər də düşməsün, nə deyim çərxi-əbtərə.
Əfsus Bakuni necə bərbad qıldılar,
Xəlqin təmam karını fəryad qıldılar.

Sübhi kibi süxənvəri bu qövmi-bədnihad,
Çəkdi sitəmlə darə qılub möhnəti ziyad.
Ol şairi-biganə, ol ğəmmani-ictihad,
Çoq zülm gördi, görmədi bir ruyi-ədlü dad.
Ol şairi ki, qılmaz idi şahə inqiyad,
Getdi fənayə cövrilə nakamü namurad.
Əhli-kəmali qətldə bu zümreyi-fəsad,
Şimrü Yezidi-dun təki dünyadə qoydi ad.
Əfsus Bakuni necə bərbad qıldılar,
Xəlqin təmam karını fəryad qıldılar.

İsmail ol xəbisi-şəyatin şərarəti,
İran adilə rusun olub əldə aləti.
Aldandı lütfə, dutdi təriqi-ədavəti,
Təhmasibin də oldi bu işdə şərakəti.
Məlumi-aləm oldi o şahın səfahəti,
Quranü din əhlinə qıldıla xəyanəti.
Xinzirü xırsilə edüb onlar rəfaqəti,
Talanə getdi Şahi-vilayət vilayəti.
Əfsus Bakuni necə bərbad qıldılar,
Xəlqin təmam karını fəryad qıldılar.

Payani olmadi Bakudə zülmü zillətin,
Təqrirə sığmayur kədəri dərdü möhnətin.
Bitməz bəyanlə zülmləri əhli-vəhşətin,
Yoqdur hesabi məhv olunan malü dövlətin.
Gördik təmam hər cəhətin hər müsibətin,
Bağlandı həm bizə qapısı ədlü rəhmətin.
Gəlməz şümarə dərdü qəmi qətlü qarətin,
Daim dilində caridü biçarə Şövkətin.
Əfsus Bakuni necə bərbad qıldılar,
Xəlqin təmam karını fəryad qıldılar.